Azərbaycanın vergi xəbərləri

UOT 336.221.4:330.8

# Azərbaycan Xalq Cümhuriyyəti dövründə iqtisadi siyasət və vergi işi



**Kərimov Xosrov Şərafəddin oğlu** *
iqtisad elmləri üzrə fəlsəfə doktoru, dosent

## Xülasə

Məqalədə Azərbaycan Xalq Cümhuriyyətinin sosial-iqtisadi siyasətinin əsas məzmunu tədqiq olunur. Qısa bir müddət ərzində milli və dünyəvi dəyərlərə söykənən liberal iqtisadiyyatın qurulması, onun real, institutsional və hüquqi əsaslarının formalaşmasının tarixi prosesi araşdırılır. Azərbaycanda ilk dəfə olaraq mülkiyyət plüralizminin, milli bankın, milli valyutanın, dövlət büdcəsinin, milli bazarın, xarici iqtisadi əlaqələrin, iqtisadi idarəetmənin, bunlarla müşayət olunan vergi işinin təşəkkülü və təkamülü tarixi ilkin mənbələr, o dövrün mətbuat orqanlarının materiallarına istinad edilərək aşkar edilir.

Tədqiqat milli dövlətçilik fikrinin iqtisadi aspektlərini dəyərləndirmək, ölkədə liberal cəmiyyət qurmaq təcrübəsini öyrənmək, həmçinin tarixin ibrət dərslərini yaddaşlara köçürmək baxımından elmi əhəmiyyət kəsb edir.

**Açar sözlər:** *Azərbaycan iqtisadiyyatı, iqtisadi fikir tarixi, vergi siyasəti*

## 1. Giriş

Xalqımızın zəngin dövlətçilik irsində Azərbaycan Xalq Cümhuriyyəti mühüm yer tutur. Əsrlər boyu təşəkkül tapan zəngin milli iqtisadi fikirlərin gerçəkləşdirilməsi üçün ilk dəfə olaraq Azərbaycan Xalq Cümhuriyyəti dövründə real imkanlar yaranır və buna qismən də olsa nail olunur.

Azərbaycan Xalq Cümhuriyyətinin milli iqtisadi modelində mülkiyyət münasibətləri, aqrar məsələ, maliyyə-valyuta siyasəti, xarici ticarət-iqtisadi münasibətlər,

*Bakı Dövlət Universiteti, Bakı şəhəri. AZ 1148. Zahid Xəlilov küçəsi, 23.
kerimli-x @mail.ru



PDF processed with CutePDF evaluation edition www.CutePDF.com

iqtisadi idarəetmə sistemi, vergi işinin təşkili diqqəti cəlb edir və öyrənilməyə layiqdir.

Azərbaycan Xalq Cümhuriyyəti müsəlman dünyasında ilk dəfə olaraq totalitar rejimin tam əksi olan demokratik idarə üsulu təsbit etdi, müstəqil Azərbaycan ideyasını müstəqil Azərbaycan iqtisadiyyatı yaratmaqla reallığa çevirmək üçün ciddi addımlar atdı. Azərbaycanın müstəqilliyi ideyasının baniləri, bu ideyanı həyata keçirənlər F.X.Xoyski, Ə.M.Topçubaşov, M.Ə.Rəsulzadə və başqaları idilər. İstiqlalımızın bu görkəmli nümayəndələrinin sosial-iqtisadi baxışlarında elə bir demokratik cəmiyyətin qurulması nəzərdə tutulurdu ki, orada vətəndaşlar arasında siyasi bərbərlik bərqərar olmaqla yanaşı, sosial ədalətsizliyin zərərli nəticələri aradan götürülmüş olsun.

## 2. Azərbaycan Xalq Cümhuriyyətinin sosial-iqtisadi siyasətinin əsas konturları

Azərbaycan Xalq Cümhuriyyətinin reallaşdırmaq istədiyi müstəqillik ideyasında iqtisadi müstəqillik əsas hesab olunurdu. Belə qəbul olunurdu ki, "fikri, milli və siyasi istiqlalların kökü iqtisadi istiqlaldadır" [1, s. 53]. Bu konseptual məsələ idi və Azərbaycan Xalq Cümhuriyyətinin bütün fəaliyyəti dövründə daima diqqət mərkəzində saxlanılırdı.

Azərbaycan Xalq Cümhuriyyətində siyasi bərabərlik müxtəlif partiya və fraksiyaların tam bərabər əsaslarla parlamentə təmsil olunmasında və bu qayda ilə çoxluğun hakimiyyəti ilə yanaşı, azlığın da hüquqlarının qanunla qorunmasında, Azərbaycan vətəndaşlarına siyasi, iqtisadi və hər cür ictimai fəaliyyət üçün tam azadlıq verilməsində özünü göstərdi. Sosial ədalət isə istehsal vasitələri üzərində mülkiyyət formaları vasitəsi ilə bərqərar edildi. Azərbaycan Xalq Cümhuriyyəti öz iqtisadi platformasında mülkiyyət plürializmini nəzərdə tuturdu. Burada dövlət mülkiyyəti, xüsusi, şəxsi, səhmdar, bələdiyyə mülkiyyəti və digər mülkiyyət formalarının inkişafı üçün bərabər imkanlar yaradılırdı. O zaman geniş yayılmış bolşevizm mövqeyindən fərqli olaraq Azərbaycan Xalq Cümhuriyyəti və onun liderləri fabrik, zavod, torpaq və digər əsas istehsal vasitələri üzərində xüsusi mülkiyyəti rədd etmirdilər. Əksinə, belə hesab edirdilər ki, "bu cür mülkiyyəti tamamilə ortadan qaldırmaq indiki durum içərisində şəxsi təşəbbüs qüvvəsini zorakı şəkildə aradan qaldırar" [2, s. 41]. Eyni zamanda, Azərbaycan Xalq Cümhuriyyətində xüsusi mülkiyyətin miqyası müəyyənləşdirilir, bu işdə ifrata varmağın zərərli olduğu göstərilirdi. Qeyri-məhdud mülkiyyət hüququ və mənimsəmədə ifratçılıq mülkiyyətin yoxluğu qədər zərərli hesab edilirdi.

Azərbaycan Xalq Cümhuriyyətinin iqtisadi modelində nəzərdə tutulurdu ki, xüsusi mülkiyyətin mövcudluğu mülkiyyətin tamamilə xırdalanmasına aparmamalıdır.

Xüsusən də fabrik və zavodların bu cür xırdalanması qeyri-mümkündür və “burada çalışan əməkçininin işdəki mövqeyi xüsusi surətdə hazırlanan əmək qanunlarının tətbiqi ilə təmin olunub” [2, s. 42].

Respublikanın yaratdığı iqtisadi qanunçuluğa görə dövlət mülkiyyətinə və qismən də bələdiyyə mülkiyyətinə “dövlətin sərvət və gəlir qaynağını təşkil edən yeraltı mədənlər”, həmçinin “dəmiryolu, işıq, su, teleqraf və sair bu kimi ümumi işlərə xidmət edən quruluşlar” daxil edilirdi [2, s. 42].

Azərbaycan Xalq Cümhuriyyətinin aqrar proqramı da iqtisadi fikir baxımından öyrənilməyə layiqdir. Bu proqramın əsasını aqrar islahatı haqqında “Müsavat”, fraksiyasının və Torpaq Nazirliyinin nöqteyi-nəzərini əks etdirən qanun layihələri təşkil edirdi. Göstərilən qanun layihələrinin müəyyən fərqlərinə baxmayaraq, məqsədi torpaqsız və aztorpaqlı əhalini torpaqla təmin etməkdən ibarət idi. Həm də xüsusi torpaq mülkiyyətini ləğv etmək deyil, torpağı xüsusi mülkiyyətə elə istehlak normaları üzrə vermək nəzərdə tutulurdu ki, bir tərəfdən kənd əhalisini gəlirlə təmin etmək mümkün olsun, digər tərəfdən istifadəsiz xüsusi sahibkar torpaqları qalmasın.

«Müsavat» fraksiyasının qanun layihəsində torpaqların əvəzsiz verilməsi, digər qanun layihəsində isə müəyyən əvəz müqabilində verilməsi əksini tapmışdır. Birinci qanun layihəsində əvvəlki sahibkarların mülkiyyətində 75 desyatin, digər qanun layihəsində isə yerli şəraitdən asılı olaraq müxtəlif miqdarda torpaq sahəsinin saxlanması müəyyənləşdirilmişdi.

Azərbaycan Xalq Cümhuriyyətinin iqtisadi platformasında pul inflyasiyasının qarşısını almaq, inflyasiya şəraitində əmək haqqını tənzimləmək, ümumiyyətlə, pul tədavülünü, xaricə xammal satışını qaydaya salmaq, gömrük siyasəti, xüsusi sahibkarlarla dövlət arasında münasibətlərin vergi vasitəsilə tənzimlənməsi qaydaları, Rusiya ilə və digər qonşu respublikalarla iqtisadi əməkdaşlıq şərtləri, özünün müstəqil valyutasını yaratmaq qaydaları da iqtisadi fikir və təcrübəni öyrənmək baxımından diqqətəlayiqdir.

Mövcud olduğu 23 ay ərzində Respublika bir sıra cari təsərrüfat və mədəniyyət məsələlərinin həllində də böyük uğurlar qazanıb. Neft sənayesi ağır vəziyyətdən çıxarılıb, dağıdılmış Bakı-Batum neft kəməri bərpa olunub, Bakı-Culfa dəmir yolu inşa edilib, Kür çayı üzərində körpü salınıb, maarif və mədəniyyət inkişaf tapıb, xaricdə yüksək ixtisaslı milli kadrlar hazırlanması işi genişləndirilib. Azərbaycan Dövlət Bankı yaradılıb, milli pul nişanları buraxılıb, Xəzər dəniz gəmiçiliyi inkişaf etdirilib, Bakı Universiteti və bir çox ibtidai məktəblər açılıb və s.

Müstəqil dövlətin atributu kimi milli pul vahidinin buraxılması Azərbaycan Xalq Cümhuriyyətinin maliyyə siyasətinin mühüm cəhətidir. 1918-ci ilin əvvəlindən Bakıda yeni kağız pullar - “Bakı bonları” buraxılır (*bu zaman tədavüldə “Nikolay” pulları və “Kerenski” pul vahidləri işlənirdi*). Lakin ilk vaxtdan etibarən milli pul vahidinin möhkəmləndirilməsi, onu alıcılıq qabiliyyətinin qorunub saxlanması hökumətin iqtisadi siyasətinin əsas məsələsi olur. Çünki Azərbaycan Xalq

Cümhuriyyətinin milli valyutası inflyasiya şəraitində dövriyyəyə buraxılmışdı. Hökumət həm əvvəlki dövrdən miras qalan, həm də respublikanın mövcudluğu dövründə baş verən inflyasiyaya qarşı mübarizə aparmalı olur. Bu məqsədlə aşağıdakı tədbirlər həyata keçirilir:

❑ müstəqil dövlətin maliyyə, vergi, bank-kredit sistemi yaradılır;
❑ 1919-cu ilin sentyabrında Azərbaycan Xalq Cümhuriyyətinin Dövlət Bankı açılır;
❑ Maliyyə Nazirliyinin 20 iyul 1919-cu il tarixli qərarı ilə əmtəələrin sərbəst ixracına nail olunması nəzərdə tutulur;
❑ Azərbaycan Xalq Cümhuriyyətinin parlamentinin bu məsələyə həsr olunan 24 noyabr 1919-cu il tarixli iclasında müxtəlif fikirlər müzakirə olunur və belə bir fikir qəbul olunur ki, ən başlıcası xəzinəni doldurmaqdan ibarət olmalıdır;
❑ xaricə gizli yolla gümüş, qızıl, platin aparılmasına görə məsuliyyət məsələsinə baxılır, bu sahədə fəaliyyət göstərən 15 noyabr 1919-cu il tarixli qanun 20 oktyabr 1919-cu il tarixli qanunla əvəz edilməklə bu məsuliyyət artırılır;
❑ respublikanın sərhədləri daxilində mal mübadiləsini tənzimləmək məqsədi ilə 1919-cu ilin avqust ayından xaricdən Azərbaycana gətirilən bir sıra zinət şeylərinə müvəqqəti gömrük tarifləri tətbiq olunur;
❑ daxili bazarı tənzimləmək məqsədilə Azərbaycandan kənara göndərilən əmtəələr üçün yeni müvəqqəti gömrük qaydalarının tətbiq edilməsi haqqında qanun təsdiq edilir (*9 fevral 1920-ci il*);
❑ çevik vergi siyasəti yeridilir;
❑ dövlət xərclərinin ixtisar edilməsi istiqamətində tədbirlər nəzərdə tutulur;
❑ xaricdən ölkəyə gömrüksüz gətirilən malların siyahısı müəyyənləşdirilir (*bu siyahıya 200-dən çox məhsulun adı daxil edilir*);
❑ xarici investorlara və Azərbaycana investisiya qoymaq arzusunda olanlara güzəştli şərtlərlə Bakı bonları təklif olunur.

Parlamentin 22 dekabr 1919-cu il tarixli iclasında yeni kabinənin bəyannaməsi ilə çıxış edən N.B.Yusifbəyov bir daha pulun qiymətdən düşməsinin səbəblərini göstərir. Onun fikrincə, ixracın olmaması, neft sənayesinin vəziyyəti, milli pul vahidinin birjada daha çox qiymətdən düşmüş ümumrusiya pulu ilə əlaqədar olması milli valyutanın qiymətdən düşməsinin ən mühüm səbəbləridir [3.s 812,813]. Yeni kabinə iqtisadiyyatın sağlamlaşdırılmasına pulun sağlamlaşdırılmasından başlanmasını məqsədəuyğun sayır.

Qeyd edək ki, Azərbaycan Xalq Cümhuriyyətinin hökuməti inflyasiya şəraitində bir neçə dəfə (*5 may 1919-cu il, 1 dekabr 1919-cu il*) əlavə pul emissiyasına icazə vermək zərurəti qarşısında qalır.

Bu, böyük diskussiya və fikir ayrılığına səbəb olsa da məqsədli xarakter daşıması nəzərə alınır. Bu tədbirin neft sənayesini böhrandan çıxarmaq vəzifəsinə xidmət etməsi göstərilir.

## 3. Azərbaycan Xalq Cümhuriyyətinin xarici iqtisadi əlaqələrinin qurulması

Yeni əsaslarda beynəlxalq iqtisadi əlaqələrin qurulması siyasi və iqtisadi istiqlal əldə edən xalqların qarşısında duran əsas məsələlərdən biridir. Bu məsələnin həlli həm daxili və həm də xarici amillərdən asılı olduğundan nisbətən çətindir və müəyyən vaxt tələb edir. Belə çətinliklərlə Azərbaycan Xalq Cümhuriyyətində qarşılaşmışdı. Azərbaycan Xalq Cümhuriyyətinin İstiqlal Bəyannaməsində Xarici ölkələrlə, xüsusən qonşu ölkələrlə iqtisadi əlaqələr yaratmaq, bu əlaqələri genişləndirmək zərurəti nəzərdə tutulur. Təsadüf deyildir ki, Azərbaycan Xalq Cümhuriyyətinin liderləri, ümumiyyətlə, Azərbaycan məsələsinə yalnız bir millət və xalqın məsələsi kimi baxmırdılar. Aparıcı "Müsavat" Partiyası öz məramnaməsində Azərbaycanın müstəqilliyi və inkişafında xarici faktorlara çox böyük əhəmiyyət verirdi.

Beynəlxalq iqtisadi əlaqələrin qurulması milli və iqtisadi mənafelərin uzlaşdırılması kimi ciddi bir məsələni ortaya çıxarır. İqtisadi nəzəriyyələr tarixindən məlumdur ki, milli və iqtisadi mənafelərin nisbəti, birinin digərindən üstünlüyü ayrı-ayrı iqtisadi məktəblər tərəfindən müxtəlif cür qiymətləndirilib.

Yeni cəmiyyət quruculuğunda həmçinin islam faktorunun nəzərə alındığını söyləmək çətin deyildir. Bu sistemdə dünyəvilik və islam sanki vəhdət təşkil edir. Xüsusən, mülkiyyət və vergi məsələlərində tam ədalətlilik və nisbi bərabərlik prinsiplərinə üstünlük verməklə "demokratizmin ümdə əqidələrinin islam ilə müxalif olmadığı" təsdiq olunur [4]. Qısa bir müddətdə 23 dövlət tərəfindən Azərbaycan Xalq Cümhuriyyətinin tanınmasında onu bu meyarlar əsasında qurulmasının az əhəmiyyəti olmamışdır.

Azərbaycan Xalq Cümhuriyyətinin iqtisadi platformasında xarici ölkələrlə iqtisadi əməkdaşlığı asanlaşdırmaq, bu sahədə maneələri aradan qaldırmaq, digər tərəfdən isə bu cür əməkdaşlığı dünya normaları əsasında həyata keçirmək nəzərdə tutulurdu. Məsələnin bu şəkildə qoyuluşu dövrü mətbuatın səhifələrində müxtəlif baxışların ortaya çıxmasına səbəb olur. "Bakinskaya jizn" (*Bakı həyatı*) qəzetində çıxan bir sıra məqalələrdə Zaqafqaziyada bütün gömrük məhdudiyyətlərinin aradan qaldırılması təklifi irəli sürülür. "Azərbaycan" qəzetində dərc olunan məqalələrdə isə göstərilirdi ki, 1919-cu ilin iyulunda Azərbaycan və Gürcüstan arasında hərbi müdafiə ittifaqı haqqında müqavilə bağlansa da bu iki respublika arasında qarşılıqlı iqtisadi əlaqələrdə gömrük hədləri mövcud olmalıdır, hökumət əmtəələrin idxal və ixracını tənzimləməlidir [5].

Xüsusən, taxıl məhsullarının İrana, Gürcüstana, Ermənistana və Dağıstana nəzarətsiz axıb getməsi Azərbaycanın milli iqtisadi mənafeləri, əhalinin tələbatını ödəmək baxımından zərərli sayılırdı [6]. Ölkəni ildə 7 milyon pud buğda idxalından xilas etmək üçün özünün taxıl istehsalı imkanlarını artırması nəinki öz əhalisinin

ehtiyaclarını ödəmək, hətta ixrac potensialına nail olmaq baxımından əhəmiyyətli hesab olunurdu [7].

Xaricdən Azərbaycana gətirilən spirtli içkilərə, balıq məhsullarına gömrük rüsumlarının artırılması haqqında Azərbaycan Xalq Cümhuriyyətinin parlamentinin maliyyə-büdcə komissiyasında 1919-cu ilin avqust ayında təsdiq olunan qanun layihələri də daxili bazarın qorunması və inflyasiyanın qarşısının alınmasına xidmət edir [8].

Xarici iqtisadi-ticarət fəaliyyətinin iqtisadiyyatın sağlamlaşdırılması və pul tədavülünün tənzimlənməsində rolu Azərbaycan Xalq Cümhuriyyətinin parlamentinin 24 noyabr 1919-cu il tarixli iclasında da geniş müzakirə olundu. İclasda məsələyə münasibətdə müxtəlif, hətta bir-birinə zidd fikirlər söylənilir. Əhməd bəy Pepinov (*müsəlman sosialist blokundan*) belə hesab edir ki, pulun məzənnəsini artırmaq üçün bəzi əmtəələrin, xüsusən taxıl, pambıq, yun və s. ticarəti inhisarlaşdırılmalıdır. Digər bir fikrə görə isə onların azad ticarətinin genişləndirilməsi zəruri sayılırdı. M.Ə.Rəsulzadə prinsipcə bu fikirləri tənqid edir və göstərir ki, bu cür təkliflər ölkəyə böyük zərər gətirə bilər. Tam azad ticarətə keçməklə ölkədə zəruri tələbat mallarına ehtiyac yaranar, inhisarlaşdırma üçün isə bizdə kifayət qədər təlimat və qaydalar yoxdur. Y.Əhmədov (*bitərəf müsəlman*) belə hesab edir ki, böyük sərvətləri (*yun, pambıq, neft və s.*) olan Azərbaycanın hökuməti əmtəə mübadiləsini düzgün təşkil etsə pul tədavülü heç bir çətinlik olmadan tənzimlənər.[9].

Azərbaycan Xalq Cümhuriyyətinin iqtisadi platformasında respublikanın mövcudluğundan əvvəl formalaşmış iqtisadi əlaqələrə münasibət əsasən birmənalı idi. Bu əlaqələri kəsmək yox, müstəqil dövlətin iqtisadi əlaqələri kimi genişləndirmək məqsədəuyğun sayılırdı. Azərbaycanda mövcud olan xarici kapital nümayəndələri ilə münasibətləri yeni əsaslarda inkişaf etdirmək üçün konkret addımlar atılırdı.

Məsələn, Azərbaycan hökumətinin 18 oktyabr 1919-cu il tarixdə qəbul etdiyi qərarda Böyük-Şor gölünün bir hissəsini "Nobel qardaşları birliyinə" icarəyə verilməsi haqqında vaxtı bitmiş müqavilənin bərpa olunması göstərilir, bu müqavilənin şərtlərinə yeni dəyişikliklərin edilməsi əsaslandırılırdı [10].

Ümumiyyətlə, Azərbaycanda xarici kapital və konsessiya məsələsinə dair həm parlamentin, həm də xarici kapital nümayəndələrinin fikirləri uyğun gəlirdi. Fransız kapitalistlərinin fikrincə, xarici kapitalın, o cümlədən fransız kapitalının Azərbaycana gəlməsi gənc müstəqil dövlətin yaşamasını, onun məhsuldar qüvvələrinin inkişaf etməsini təmin edər.

Xarici kapitalın respublikaya hansı şəkildə tətbiqinə gəldikdə isə aşağıdakı formalar təklif olunurdu:

1) İngiltərə, Almaniya, Fransa, Hollandiya və ABŞ-da olduğu kimi müəyyən sənaye sahəsinin sadəcə, maliyyələşdirilməsi yolu ilə;

2) Konsessiya formasında.

Fransız kapital sahibləri ikinci yola üstünlük verirlər. Belə hesab edirlər ki, Azərbaycanda konsessiya obyekti nəqliyyat, meşə sərvətinin istehsalı, liman avadanlıqları istehsalı, neft rayonlarının elektrikləşdirilməsi, soyuducu işi və s. ola bilər [11].

Həmçinin respublika sərhədləri daxilində mal mübadiləsini tənzimləmək məqsədilə 1919-cu ilin avqust ayından xaricdən Azərbaycana gətirilən bir sıra zinət şeylərinə xüsusi müvəqqəti gömrük tarifləri tətbiq olunur [12].

Azərbaycan Xalq Cümhuriyyəti parlamentinin 22 dekabr 1919-cu il tarixli iclasında hökumət rəhbəri Nəsibbəy Yusifbəyov yeni kabinənin bəyannaməsini elan edir. Bəyannamə iqtisadi fikir baxımından diqqəti cəlb edir. Orada Azərbaycanın azad və müstəqil yaşamasının şərti kimi güclü iqtisadiyyatın yaradılması zərurəti göstərilir. Hökumətin xarici ticarət siyasətində köklü dəyişiklik etməsi nəzərdə tutulur. İndiyədək ticarət siyasətində idxalı artırmaq və imkan daxilində ixracı azaltmaq üstünlük təşkil edirdisə və nəticədə pul qiymətdən düşürdüsə, artıq indi ixracı stimullaşdırmaq istiqamətində tədbirlərin həyata keçirilməsi mümkünlüyü və zərurətindən bəhs olunurdu [13].

Qeyd edək ki, Azərbaycan Xalq Cümhuriyyəti özünün xarici iqtisadi fəaliyyətində daima Azərbaycan hökumətinin başlıca vəzifələrini reallaşdırmaq məqsədini güdürdü. Bu vəzifələrdən biri öz əhalisini zəruri şeylərlə təmin etməkdən və xəzinənin gəlirlərini artırmaq üçün əlavə mənbələr axtarıb tapmaqdan ibarət idi. Belə əlavə mənbələrdən biri də gömrük gəlirləri idi. Bu və ya digər məhsulun xaricə satışına icazə verilməsi və ya onun qadağa edilməsi zamanı o məhsulun əhali üçün nə dərəcədə zəruri olması, hökumətə nə qədər gəlir gətirməsi halları diqqətlə nəzərə alınırdı. Azərbaycan hökumətinin 20 fevral 1919-cu il tarixli qanun layihəsi ilə xaricə konyak, üzüm və tut spirtlərinin ixracına icazə verilir [14]. Qeyd edək ki, Azərbaycan Xalq Cümhuriyyətinin fəaliyyətindən qabaq xaricə spirtlərin satışı qadağan olunmuşdu. Bu da bəzi təsərrüfatların və hökumətin maliyyəsinə ciddi mənfi təsir göstərmişdi. Hökumət belə hesab edir ki, xaricə spirt satışında nəinki dövlət xəzinəsi və araq çəkməklə məşğul olan adamlar, həmçinin bütün əhali maraqlıdır. Onlar öz təsərrüfat məhsulları olan üzümü və tutu şərab zavodlarına satmaqla qazanar, indiyədək heç bir qiyməti olmayan tullantılardan (*məsələn, çürümüş meyvə qabıqları*) istifadə sərfəli bir işə çevrilər. Bu qanun layihəsini işləyib hazırlayarkən hökumət həm də onu nəzərdə tuturdu ki, əhali üçün spirt ancaq texniki və tibbi məqsədlər üçün zəruridir. Xaricə satışına icazə verilən 85 dərəcəli konyak spirti və 40-45 dərəcəyə qədər olan üzüm və tut spirti isə bu məqsəd üçün yaramır. Ona görə də onun xaricə satışından əhaliyə heç bir ziyan dəyə bilməz.

Parlamentin Azərbaycan Respublikasının sərhədlərindən kənara xammal ixracının şərtləri haqqında qəbul etdiyi qanun da respublikanın xarici iqtisadi fəaliyyətini öyrənmək baxımından çox qiymətlidir [15]. Bu qanuna görə pambıq, yun, ipək, frizon (*ipək istehsalında tullantı*), barama kimi xammalların azad şəkildə ixracına bu şərtlə icazə verilirdi ki, ixrac olunan xammalın dəyərinin 25 faizi əvəzsiz olaraq

xəzinənin hesabına keçirilsin. Məsələnin belə qoyuluşu xarici valyuta əldə etmək və ya əmtəə mübadiləsi qaydası ilə dövlətə lazım olan zəruri məhsulları almaq imkanı verirdi. Bu şəkildə xammal ixracının nisbətən səmərəli bir tədbir kimi ortaya çıxması çoxlu mübahisələrin, fikir ayrılıqlarının təsiri nəticəsində aşkar olundu. Ticarət, Sənaye və Ərzaq Nazirliyi ilk vaxtlar valyuta əmtəələrinin xarici bazarlarda özünün xüsusi agentləri vasitəsi ilə satışının təşkil olunmasını irəli sürdü. Lakin bu agentlərin Qərb bazarlarının qayda-qanununu kifayət qədər bilməməsi və bu qaydaların hələ hökumət üçün də qaranlıq olması nazirliyin bu tədbirdən əl çəkməsinə səbəb oldu. Bu zaman xarici valyuta əldə etmək məqsədi ilə belə əmtəələrin azad satışına icazə verilməsi, azad ticarət prinsipinin tətbiqi kimi mülahizələr də mövcud idi. Bu mülahizələr onların tətbiqində ciddi çətinliklərin mövcudluğu ucbatından həyata keçirilmədi. Məsələn, azad ticarət prinsipinə keçid ona görə əlverişli ola bilməzdi ki, bütün qonşu respublikalarda tənzimlənən əmtəə mübadiləsi sistemi üstünlük təşkil edirdi. Belə şəraitdə yalnız Azərbaycanda azad ticarətin tətbiqi respublikadan hər şeyin ixracına səbəb olar, idxal minimum həddə enərdi. Qonşu respublikalar Azərbaycan mallarından özlərində xaricə əmtəə mübadiləsi əməliyyatları üçün istifadə edərdilər. Nəticədə Azərbaycan hökuməti xammal ixracına, xəzinəyə müəyyən rüsum keçirmək şərti ilə icazə vermək qaydasına üstünlük verdi. Xammal ixracına dair bu cür qaydanın işlənib hazırlanmasını Azərbaycan Xalq Cümhuriyyəti dövründə iqtisadi fikrin mühüm nailiyyəti hesab etmək olar.

Azərbaycan Xalq Cümhuriyyəti özünün xarici-iqtisadi siyasət sahəsində fəaliyyətini ancaq qanunların işlənib hazırlanması ilə məhdudlaşdırmır. Bu qanunların həyata keçirilməsi istiqamətində mühüm addımlar atır. Məsələn, xarici dövlətlərlə əmtəə mübadiləsini qaydaya salmaq üçün ağır maliyyə şəraitində 20 milyon manatlıq fond yaradılır və hökumətin 12 fevral 1919-cu il tarixli qərarı ilə bu fonddan ilkin ehtiyaclar üçün 10 milyon manat həc-mində kredit buraxılması qərara alınır [16]. Eyni zamanda, Azərbaycan Xalq Cümhuriyyətinin Ticarət, Sənaye və Ərzaq Nazirliyinin nəzdində “Xarici dövlətlər və bir-birinə yaxın sahələrlə əmtəə mübadiləsi komitəsi” fəaliyyət göstərir. Komitə haqqında təsdiq olunmuş xüsusi əsasnamədə göstərilir ki, Əmtəə Mübadiləsi Komitəsinin mühüm vəzifələrindən biri respublikanın iqtisadi və maliyyə vəziyyətinin əsasını təşkil edən xaricə neft ixracını və satışını təşkil etməkdən ibarətdir [17]. Komitənin 15 mart 1919-cu il tarixli plenar iclasında gedən geniş diskussiya onunla nəticələnir ki, bütün əmtəələr iki böyük qrupa ayrılır:

1) Xaricə ixrac edilməsinə, ümumiyyətlə, icazə verilməyən əmtəələr və ya komitənin xaricə ixrac etməyə səlahiyyəti olmayan əmtəələr;

2) Komitənin icazəsi ilə xaricə ixrac edilməsinə icazə verilən əmtəələr. Bu iclasdan dərhal sonra Ticarət, Sənaye və Ərzaq Nazirliyi ixraca dair qaydalar təsdiq edir. [18]

Qaydalarda, ümumiyyətlə, ixracına icazə verilməyən əmtəələrə taxıl, un, bişirilmiş çörək, krupa, yem, at, iri və xırda buynuzlu mal-qara, ət və onun bütün növləri,

qənd, külçə və pul şəkilində qızıl və gümüş, dəmir, soyuq silahlar və s. daxil edilir. Komitə tərəfindən xaricə satışına icazə verilən əmtəələrə düyü, makaron, hər cür toxum və tərəvəz, çay, qəhvə, bitki yağı, şərab, duz, sabun, meşə materialları, neft və neft məhsulları, qızıl və gümüş məmulatı, maşın və alətlər və s. aid edilir. Əsasnamədə göstərilir ki, bu iki qrupa aid olmayan, yerdə qalan bütün əmtəələrin azad satışına icazə verilir. Hökumət Nazirliyin iclaslarında gedən diskussiyalara yekun vuraraq əmtəələrin ixracı üzrə qaydaları təsdiq edir (28 iyun 1919-cu il) və bunun əsasında xüsusi sərəncam verir [19].

Bütün Zaqafqaziya xalqlarını iqtisadiyyat sahəsində ümumi maraqlar birləşdirdiyi üçün əslində müstəqil dövlətlər arasında əlaqələri genişləndirməkdə heç bir maneə yox idi. Özünün hələ mükəmməl iqtisadi bazasını yaradıb başa çatdırmayan Azərbaycan Xalq Cümhuriyyəti ümumi humanizm prinsipləri ilə çıxış edərək, Dağıstana 50 milyon manat məbləğində yardım göstərir.

Azərbaycan Xalq Cümhuriyyəti qonşuluğa mühüm iqtisadi faktor kimi baxırdı. Demokratik respublikanın xarici iqtisadi əlaqələrinin formalaşması baxımından Azərbaycan və Gürcüstan Respublikaları arasında bağlanan müqavilə hüquqi və iqtisadi sənəd kimi diqqəti cəlb edir [20]. 26 dekabr 1918-ci il tarixdə bir illik müddətə bağlanan bu müqaviləyə əsasən böyük ehtiyac olan məhsulların bu respublikanın tələbatları çərçivəsində gömrük vergiləri qoymadan alınıb-satılmasına icazə verilir. Əhalinin və Gürcüstan dəmiryolunun ehtiyacları üçün neft, mazut, kerosin, yağların rüsumsuz ixracına müəyyən hədd qoyulur. Müqavilədə göstərilir ki, gürcü əhalisi üçün kerosin buraxılması 1 milyon pud, neft və neft məhsullarının ümumi satışı isə 20 milyon puddan çox olmamalıdır. O cümlədən, satılan neftin dəyərinin 1/10 hissəsi həcmində Gürcüstanın Azərbaycana bəzi məhsulları gömrüksüz satması nəzərdə tutulur. Bura daş kömür, meşə materialları və s. aid edilir. Müqaviləyə görə, digər respublikalardan alınan məhsulların başqa respublikalara satışına icazə verilmir.

Azərbaycan Xalq Cümhuriyyəti həmçinin Rusiya ilə iqtisadi əməkdaşlıq etməyə böyük əhəmiyyət verirdi. Azərbaycan Xalq Cümhuriyyətinin təcrübəsində belə bir cəhət diqqətəlayiqdir ki, o, Rusiya bazarından məhrum olmağa mənfi münasibət bəsləyir. Neft, pambıq və başqa ixrac məhsulları üçün rus bazarlarının böyük əhəmiyyətini nəzərdə tuturdu. M.Ə.Rəsulzadə «bolşevik höku-məti ilə birbaşa əlaqələrin yaradılmasını» tələb edir, N.Yusifbəylinin təşkil etdiyi hökumət öz iqtisadi proqramında bu məsələyə böyük yer verirdi. Lakin əks tərəfin Azərbaycanı müstəqil dövlət kimi tanımasını açıq bildirməməsi və Qızıl Ordunun Azərbaycan istiqamətində irəliləməsi bu məsləyə münasibətdə Azərbaycan Xalq Cümhuriyyəti parlament və hökumət üzvlərinin arasında mübahisələrə səbəb oldu.

Daxili işlər naziri M.N.Hacınski mövcud vəziyyəti nəzərə alıb belə hesab edirdi ki, Azərbaycanın istiqlaliyyətini tanıtdırmaq üçün Sovet Rusiyasına böyük iqtisadi, maddi güzəştlər etmək lazımdır. Xarici işlər naziri F.X.Xoyski isə bundan fərqli

olaraq güclü rejim yaradıb Rusiya tərəfindən təcavüz olduğu halda hərbi qüvvə ilə cavab verməyi məqbul hesab edirdi.

Müxtəlif fikirlərin mövcudluğuna baxmayaraq, 1920-ci ilin martın 30-da Sovet Rusiyası və Azərbaycan birgə komissiyasının iclasında ticarət müqaviləsi imzalanmışdır. Lakin Rusiyaya münasibətdə göstərilən mövqelərin heç biri əslində həyata keçirilmədi. Bolşeviklər Azərbaycan Xalq Cümhuriyyətini qane edə biləcək bir sıra şərtlər vəd etsələr də onlara əməl etmədilər.

Azərbaycan Xalq Cümhuriyyətinin müstəqil dövlət kimi formalaşması bu respublikaya münasibətlərində başqa dövlətlərin öz mövqelərini dəyişməyə sövq etmişdir. Məsələn, İngiltərə Azərbaycanın müstəqilliyini tanımaqla bərabər, öz qoşunlarını müəyyən şərtlərlə respublikadan çıxarmağı lazım bilirdi. Azərbaycan dövlət və hökumət nümayəndələri isə bu münasibəti tam dərinliyi ilə dərk edərək mövqelərini müəyyənləşdirməli olurlar.

Azərbaycanın xarici iqtisadi-ticarət strategiyasına dair fikirlərin aşkar edilməsi baxımından Paris sülh konfransının ali şurasına təqdim olunan memorandum böyük əhəmiyyət kəsb edir. Bu sənəddə iqtisadi əlaqələrin pozulması nəticəsində respublikada əmələ gələn iqtisadi-maliyyə böhranı faktlarla səciyyələndirilir.

Böhranın aradan qaldırılması üçün müəyyən məbləğ borc alınması, borcları isə respublikanın real malik olduğu neft, pambıq, yun, ipək hesabına ödənilməsi öhdəyə alınır [21, s. 31].

Azərbaycan Xalq Cümhuriyyəti dövründə neft sənayesi iqtisadiyyatın prioritet sahəsi sayılırdı. Bu zaman neft dünyanın ən qüvvətli hərəkətvericisi idi. Odur ki, parlament və hökumət vaxtaşırı neft hasilatı və emalının vəziyyətini təhlil edir, dünya neft bazarını öyrənirdi.

Azərbaycan Xalq Cümhuriyyətinin xarici-iqtisadi fəaliyyət sahəsində siyasəti respublika az yaşadığından tam həyata keçirilmədi. Lakin bu siyasət respublikanın artıq yenidən bərpa olunan milli istiqlalının möhkəmləndirilməsi üçün bu gün böyük təcrübi əhəmiyyət kəsb edir.

## 4. Azərbaycan Xalq Cümhuriyyətində vergi işinin təşkili

XX əsrin əvvəllərində dünya iqtisad elmində neoklassik istiqamət üstünlük təşkil edirdi. Azad rəqabətin yerinə gələn inhisarlar dövlətin iqtisadiyyata fəal müdaxiləsini tələb edirdi. Bu isə mükəmməl dövlət büdcəsinin formalaşdırması ilə mümkün idi. Dövlət büdcəsini formalaşdırmaq həm də yeni təşəkkül tapmış cümhuriyyətin siyasi istiqlalını qoruyub saxlamaq baxımından müstəsna əhəmiyyətə malik idi. Azərbaycan Xalq Cümhuriyyətində büdcə quruculuğuna düzgün olaraq vergi işindən başlandı. Vergi işinin təşkili Maliyyə Nazirliyinin səlahiyyətində idi. Qısa müddətdə vergi orqanlarının həm mərkəzi, həm də yerləri şəbəkəsi formalaşdırılmışdı.

Cümhuriyyətin ilk tədbirlərindən biri aksiz idarələrinin təsdiqlənməsi oldu. Buraya Bakı, Gəncə, Zaqatala quberniyaları daxil idi [22]. Yerli məsul struktur orqanlar yaradılmaqla qəza rəislərinin vergi yığmaq funksiyası onların əlindən alındı. Həmçinin Maliyyə Nazirliyinin nəzdində mərkəzi nəzarətçi orqan kimi vergi müfəttişliyi təsis edildi. Azərbaycan Xalq Cümhuriyyətinin yeni Maliyyə Naziri İ.N.Protasovun "Azərbaycan" qəzetinin 31(18) dekabr 1918-ci il tarixli nömrəsindəki məqaləsində Cümhuriyyətin maliyyə vəziyyəti təhlil olunur. Məlum olur ki, xəzinənin əsas gəlir mənbəyi olan neft sənayesinin vəziyyəti qənaətbəxş deyil. Kerosinin Batum vasitəsilə xaricə ixracı əhəmiyyətsiz bir miqdardadı. Çünki Azərbaycan kerosini ucuzluğuna görə Amerika kerosin trestləri ilə rəqabət apara bilmir. Vaxtilə 400 mln pud neft və neft məhsulları satılan Rusiya bazarı isə bizim üçün bağlıdır. Zaqafqaziyada neft istehlakı isə ildə cəmi 12 mln puddur. Xəzinənin nəinki neft sənayesi vasitəsilə doldurulmasından danışmaq olmazdı. Əksinə xəzinə (dövlət) neft sənayesinə müvəqqəti maliyyə yardımı göstərməli idi. 1918-ci ilin dekabr ayına kimi Maliyyə Nazirliyi fəhlələrə əməkhaqqı vermək məqsədilə neft sənayeçilərinə hətta 50 mln rubl məbləğində ssuda vermişdi. Bu ssudanın daha da artırılmasına və Rusiyada naviqasiya açılanadək 200 mln rubula çatdırılmasına ehtiyac var idi [23]. Vəziyyətdən əsas çıxış yolu vergilərin dərəcələrini artırmaqdan ibarət ola bilməzdi. Maliyyə Nazirliyi və bütövlükdə hökumət problemin həlli yolunu ölkədə əmtəəsizliklə mübarizə aparılmasında görürdü. Dövlət bank fəaliyyətini canlandırmaqla, banklara etibarı artırmaqla həm müttəfiqlərin maliyyə etimadını qazanmaq, həm də balışda gizlədilmiş 100 milyonlarla rubl pulu iqtisadiyyat və ticarətə cəlb etmək vəzifəsini qarşısına qoydu.

Hökumətin 1 oktyabr 1918-ci il tarixli dekreti ilə Azərbaycan iqtisadiyyatının ən mühüm sahəsi və deməli vergi tutma obyekti olan neft sənayesi özəlləşdirilir [24]. Lakin bu, işin ancaq başlanğıcı sayılır. Müharibəyə qədər ölkə ixracının əsasını təşkil edən neft sənayesi dağılmış, ağırlıq ərzaq - əmtəə məhsullarının üzərinə keçmişdi. Bu zaman həm parlamentdə, həm də dövrü mətbuatda gedən böyük mübahisə neft sənayesinin aksiz və inhisara verilməsi məsələsi ətrafında idi. Bakı neftindən xəzinəyə daha çox gəlir daxil olmasını təmin etmək üçün bu yolların hansına üstünlük verilməsi mübahisəli idi. Geniş müzakirə və diskussiyalardan sonra liberal iqtisadiyyata üstünlük verilməsi, neft məhsullarını sərbəst satmaq şərti ilə büdcəyə müəyyən məbləğin köçürülməsi məqsədə uyğun hesab olundu. Başqa sözlə neft məhsullarından alınan aksizlərə üstünlük verildi. O zaman "Kaspi" qəzetinin bir neçə nömrəsində belə təklif də səslənirdi ki, Azərbaycan hökuməti üçün neft satışını inhisarlaşdırmaqdansa iri payçı kimi dövlətin iştirakı ilə yeni sənaye birlikləri yaratmaq daha məqsədəuyğundur. Bu birliklərdə yerli neft sənayeçiləri öz pulları ilə, dövlət isə torpaqla iştirak etməlidir. Torpağa görə dövlətə torpaq rentasının 33 faizi və ya 38 faizi verilməlidir. Məqalə müəllifinin fikrinə görə, xəzinə üçün zəruri olan gəlirlərin aksiz yolu ilə dövlət nəfinə keçirilməsinin neft satışının inhisarlaşdırıl-

masından bir üstünlüyü də onda idi ki, neft istehsalı ilə əlaqədar dövlət inzibati xidmət aparatını saxlamaqdan azad olur [25].

Azərbaycan Xalq Cümhuriyyəti dövründə hökumət vergi işini institutsional cəhətdən daima təkmilləşdirir, buradakı problemlərə xüsusi diqqət yetirirdi. Parlamentin 17 mart 1919-cu il tarixdə təsdiq etdiyi qanunla yerlərdə gəlir vergisini yığmaq hüququ quberniya və qəza idarələrinə verildi, parlamentin 17 iyun 1919-cu il tarixli qərarı ilə Maliyyə Nazirliyinin nəzdində vergi müfəttişi vəzifəsi təsis olundu. Parlamentin 22 dekabr 1919-cu il tarixli iclasında Balaxanı-Sabunçu rayonlarının vergi polisinin təsis edilməsi haqqında qanuna baxılmışdı [23, s. 807]. 15 may 1919-cu il tarixli qanunla isə kapital vergisinin, müstəqim vergilərin dərəcələri təsdiq olundu. Məsələn, kapital üçün vergi müəssisələrin əsas kapitalının hər bir manatı üçün 30 qəpik müəyyənləşdirildi [23, s. 408].

23 iyul 1919-cu il tarixdən yaşayış minimum dövlət vergisinə cəlb olunmayan hissəsi 1000 rubldan 5000 rubla qədər artırıldı. O zaman parlament tərəfindən torpaq vergisinin, sənət vergisinin, əmlak vergisinin, həmçinin neft və kənd təsərrüfatına qoyulan aksizlərin artırılması dövlət büdcəsinin yaranmasına əsaslı təminat versə də onların tam müsbət nəticə verdiyini söyləmək düzgün olmazdı. Lakin bu tədbirlər liberal iqtisadiyyat quruculuğu, o dövrün prioritet iqtisadi nəzəriyyələrinin tələbləri baxımından, demək olar ki, düzgün müəyyənləşdirilmişdi.

Azərbaycanda müstəqil dövlətin büdcə quruculuğu təcrübəsi Azərbaycan Xalq Cümhuriyyəti dövründən başladı. O zaman, Azərbaycan hökuməti dövlətin iqtisadi tənzimləmə fəaliyyətini təmin etmək və getdikcə gücləndirmək üçün dövlət büdcəsini yaratmağı vacib saydı. Bununla əlaqədar büdcə gəlirlərinin formalaşdırılması mənbələri-vergilər, aksizlər, digər daxil olmalar müəyyənləşdirildi, büdcə xərcləri təsnifləşdirildi.

Azərbaycan Xalq Cümhuriyyətinin iqtisadiyyat sahəsində mühüm addımlarını sıralamış olsaq xüsusi mülkiyyət institutunun yaradılmasını, büdcənin təşkilini, milli valyutanın təsis edilməsini qeyri şərtsiz göstərmək lazım gələr. Dövlət büdcəsinin formalaşdırılması üçün təminat neft və neft məhsullarından əldə edilən gəlirlər ola bilərdi. Çünki ölkə iqtisadiyyatının əsasını neft təşkil edirdi. Respublikanın Maliyyə Nazirliyi timsalında hökumət belə hesab edirdi ki, neft və neft məhsullarına dövlətin xeyrinə aksizlər qoymaqla dövlət büdcəsi üçün maliyyə əsası yaratmaq olur. Bununla əlaqədar aksiz rüsumları haqqında nizamnamə qəbul edilmiş, bir çox qanun layihələri hazırlanmış və parlamentin müzakirəsinə təqdim olunmuşdu. Büdcə tam hazırlanmamış və təsdiq edilməmişdən əvvəl dövlət gəlirlərinin ayrı-ayrı mənbələr üzrə formalaşmasının smetası tərtib edilmişdi [26]. Bu smeta ilə büdcə arasında qismən fərq olsa da məlum olur ki, gəlirlər əsasən birbaşa və dolayı vergilərdən formalaşdırılır [27]. Müstəqil respublikanın ilk dəfə olaraq gəlir cədvəlinin işlənib hazırlanması müəyyən çətinliklərlə rastlaşırdı. Hər şeydən əvvəl ağır bir şəraitdə müstəqillik bəyannaməsi qəbul edilmişdi, xarici və daxili müharibələr nəticəsində

istehsal və ticarət ləngimiş, qiymətlər artmışdı, əmək haqqı isə bu qiymətlərlə ayaqlaşa bilmirdi. Digər tərəfdən əsas Şimal satış bazarından heç bir məlumat daxil olmurdu, yerlərdə hökumət tədbirlərini həyata keçirməyə imkan verən və deməli gəlirlərin dövlət büdcəsinə cəlb edilməsini təmin edən idarə orqanları demək olar ki, yox dərəcəsində idi. Bu səbəblər üzündən respublika büdcəsinin möhkəm tam etibarlı təməl üzərində qurmaq mümkün deyildi. Ayrı-ayrı mənbələr üzrə gəlirlərin formalaşdırılmasının metodikası olsa da hələ mükəmməl deyildi. Ona görə də sonradan büdcə gəlirləri layihəsində müəyyən düzəlişlər etmək lazım gəldi. Neft məhsullarının aksizlərinin, gömrük üzrə daxil olmaların, dəmir yolundan gəlirlərin artırılması məqsədəuyğun hesab olundu [28]. Bütün bu çətinliklərə baxmayaraq Azərbaycan Xalq Cümhuriyyəti hökumətinin ciddi cəhdləri sayəsində 1919-cu il üçün dövlət büdcəsini formalaşdırmaq mümkün oldu. Dövlət büdcəsinin gəlir hissəsi müstəqim və qeyri-müstəqim vergilərdən, gömrük haqqından, dövlətin inhisarı, mədənlərin istismarı haqqı (mədən vergisi), dövlət dəmir yolunun xalis gəlirindən ibarət olmaqla 6 əsas hissəyə bölünmüşdü. Müstəqim vergilərə aid idi: torpaq vergisi, əmlak vergisi, gəlir vergisi, hərbi mükəlləfiyyət vergisi, notarial vergilər.

Qeyri-müstəqim vergilərə isə bunlar daxil idi: ağ neft, benzin, sürtgü yağları, kerosin, neftdən alınan digər məhsullardan, həmçinin tütün, papiros kağızları, şəkər, çaydan alınan vergi. Hökumət inhisarına aid vergilərə bunlar daxil idi: mədən gəliri, poçt-teleqraf gəliri, meşələrdən, balıq vətəgələrindən, pambıqçılıq təsərrüfatlarından gələn gəlirlər. Bu vergilər hesabına 1919-cu il üçün dövlət büdcəsinin gəlirlərini 665 mln. manata çatdırmaq nəzərdə tutulmuşdur ki, bu da az məbləğ deyildi [29, s. 181]. Dövlət büdcəsinin gəlirlərinin strukturu belə idi: müstəqim vergilər 17,3 faiz, qeyri-müstəqim vergilər 18 faiz, gömrük haqqı 15 faiz, dövlət inhisarı 1,1 faiz, neft mədənlərindən, meşələrdən, pambıq tarlalarından, balıq vətəgələrindən alınan istismar haqqı 34,3 faiz, dövlət dəmir yolunun xalis gəliri 7,5 faiz. Respublika iqtisadiyyatının əsasını təşkil edən neft istehsalının azalmasına baxmayaraq neft məhsullarından tutulan qeyri-müstəqim vergilər və neft mədənlərindən alınan istismar haqqı göründüyü kimi büdcə gəlirlərinin 52,3 faizini təşkil edirdi.

Qeyd olunmalıdır ki, gənc müstəqil dövlətin ilk büdcəsini həm daxili, həm də xarici səbəblərdən mükəmməl hesab etmək olmazdı. Müharibə və rus inqilabının ölkənin dövlət həyatında yaratdığı ağır vəziyyət, həmçinin ölkə iqtisadiyyatının zəifliyi, pul nişanlarının qiymətdən düşməsi büdcə quruculuğuna mənfi təsir göstərirdi. Öz növbəsində büdcəni formalaşdırmadan iqtisadiyyatı ağır vəziyyətdən qurtarmaq və möhkəmləndirmək də çətin idi. Azərbaycan Xalq Cümhuriyyəti dövründə bu istiqamətdə görülən ilk tədbirləri uğur-lu hesab etmək olar. 11 dekabr 1919-cu ildə parlament tərəfindən qəbul edilən "Azərbaycan respublikasının sərhədlərindən kənara xammal ixracının şərtləri haqqında" qanununa görə ixrac olunan əmtəələrin dəyərinin 25 faizinin xəzinəyə verilməsi nəzərdə tutulurdu [30]. Parlamentin təsdiq etdiyi "Dövlət gəlir vergisinə cəlb olunmayan yaşayış minimumu gəlirlərinin artırıl-

masına dair" 23 iyun 1919-cu il tarixli qanunu Azərbaycan Xalq Cümhuriyyətində vergi işinin d aim təkmilləşdirilməsini göstərirdi. Bu qanuna görə, vergiyə cəlb olunmayan minimum gəlir mənbəyi inflyasiya və digər hallar nəzərə alınaraq 1000 manatdan 5000 manata qaldırıldı [31]. Digər bir qanun layihəsində isə illik gəliri 60 min manatdan çox olanlardan tutulan gəlir vergisini 25 faiz artırmaq nəzərdə tuturdu [32]. Maliyyə Nazirliyinin 5 aprel 1920-ci ildə Azərbaycan Respublikası Parlamentinə göndərdiyi məktubunda 1920-ci il üçün yaşayış minimumun artırılmasını və gəlir vergisi dərəcələrinin dəyişdirilməsi haqqında qanun layihəsinin təsdiq edilməsi xahiş olunurdu. Bu qanun layihəsi ilə əlaqədar izahatda deyilirdi ki, həyatın ümumi bahalaşması 1920-ci ildə vergi tutulmayan yaşayış minimumunu bir daha artırmaq, gəlir vergisi tutulmayan əvvəlki imkanları dəyişmək zəruridir [33].

Deməli, hökumət qiymət və gəlirlərin artması ilə həyat səviyyəsinin tənzim edilməsinin bütün ənənəvi qaydalarından istifadə edirdi. Əhalidən tutulan gəlir vergisini sosial ədalət prinsipləri əsasında tənzimləməyə xüsusi diqqət yetirilirdi. Çevik vergi siyasəti bir tərəfdən əhalinin müəyyən təbəqəsinin güzəranına dəyən mənfi təsiri kifayət qədər minimuma endirməyə, digər tərəfdən respublika xəzinəsini möhkəmləndirməyə xidmət edirdi [34].

Azərbaycan Xalq Cümhuriyyətinin vergi siyasətində parlamentin 2 oktyabr 1919-cu il tarixli qanunu da mühüm rol oynadı [35]. Qanun hərbi verginin ləğv edilməsini nəzərdə tutur. 19 aprel 1915-ci ildən Azərbaycanda hərbi mükəlləfiyyətdən azad olunanlara vergi tətbiq edilirdi. Azərbaycan Xalq Cümhuriyyəti müsəlman əhalinin öz dini etiqadlarına kifayət qədər əməl etməsi üçün şərait yaratmağı, həmçinin bu verginin kəmiyyətinin onsuz da az olmasını və ona görə də dövlət gəlirində xüsusi rol oynamadığını nəzərə alaraq onun tamamilə ləğv edilməsi qərarına gəlmişdi. Bu qanun hökumətin demokratik maliyyə siyasətinin səciyyələndirmək baxımından qiymətlidir.

Azərbaycan Xalq Cümhuriyyətinin ağır maliyyə vəziyyəti vaxtaşırı təcili tədbirlər həyata keçirməyi qaçılmaz etmişdi. Müstəqim vergilərin artırılması ilə respublikanın maliyyə vəziyyətini yaxşılaşdırmağın nəinki praktiki cəhətdən, həm də elmi nəzəri cəhətdən mümkünsüz olduğu məlum idi. Ona görə də dövlət xəzinəsinin tələblərini ödəmək üçün daha təsirli tədbir kimi 1920-ci il üçün birdəfəlik fövqəladə vergi tətbiq etmək qərara alındı. Bununla əlaqədar Maliyyə Nazirliyi tərəfindən 10 mart 1920-ci il tarixli məktubla Nazirlər Kabinetinə müraciət olundu və "1920-ci il üçün fövqəladə birdəfəlik dövlət vergisi haqqında qanun layihəsi" təqdim edildi [36]. Azərbaycan Hökuməti bu qanun layihəsini bəyənir və parlamentin təsdiqinə verir. Fövqəladə verginin əmlak, kapital, gəlir və əmək haqqına qoyulması nəzərdə tuturdu. Qanunda göstərilirdi ki, əmlakı, kapitalı və kapitallaşmış gəlirləri, əmək haqqı 300 min manatdan aşağı olan adamlar vergidən azad edilir. Maliyyə Nazirliyi fövqəladə birdəfəlik verginin ümumi məbləğinin 1 mlrd manat olmasını nəzərdə tuturdu [37]. Belə hesab olunurdu ki, bu vergi həmçinin əhalidən böyük məbləğdə

kağız pulun geri götürülməsinə imkan verər və bu yolla məcburu kağız pul emissiyasının qarşısını alar, milli valyutanın məzənnəsini artırar.

Azərbaycan Xalq Cümhuriyyəti torpağın məhsuldarlığının artırılması ilə torpaq vergisinin artırılması siyasətini yeridirdi. Maliyyə Nazirliyinin hazırladığı məruzədə göstərilirdi ki, ayrı-ayrı qəzalar üzrə 1918-ci ilin normaları ilə torpağın gəlirliliyinin ümumi məbləği vergiyə cəlb olunan gəlirlilik səviyyəsini 36-72 dəfə ötüb keçir. Ona görə də torpaqdan əldə edilən dövlət gəlirlərini artırmaq nəinki mümkündür, hətta zəruridir. Maliyyə Nazirliyi bunu həyata keçirməyin iki yolunu göstərir: yeni rüsum və vergilər tətbiq etməklə, mövcud vergi dərəcələrini artırmaqla. Birinci yol torpaq sahələrinin yenidən uçotunun aparılmasını tələb etdiyindən və bunun üçün müəyyən zaman tələb olunduğundan ikinci yola üstünlük verilir. Yəni dövlət torpaq vergisinin 10 dəfə artırılmasının mümkünlüyü aşkar edilir [38].

Azərbaycan Xalq Cümhuriyyətinin fəaliyyət göstərdiyi 23 ay ərzində onun həyata keçirmək istədiyi maliyyə-vergi siyasətini araşdırdıqda məlum olur ki, bu siyasəti şərti olaraq 2 hissəyə ayırmaq olar:

1.Cari dövr üçün maliyyə siyasəti. Bu halda Azərbaycan Xalq Cümhuriyyəti özünün mövcud maliyyə resurslarından tam və düzgün istifadə etməyə cəhd edir.

2.Cümhuriyyət özünün sahiblik sərhədlərini (bütün imkanlarını) müəyyən etdikdən sonra həyata keçirməli olduğu strateji maliyyə siyasəti. Bu halda vergilərin artırılması deyil, əhalinin tədiyə qabiliyyətinin yüksəldilməsi məqsədilə bu vergilərin tədricən azaldılmasına üstünlük verilməsi nəzərdə tutulurdu. Artıq 1920-ci ildə dövlətin vergi siyasəti üçün bu əlamətlər xarakterik idi: Dövlətin gəlir smetasında əsas yerin tədricən birbaşa vergilərə verilməsi, torpaq vergisinin artırılmasının məqsədəuyğun olmaması, gəlir vergisinin əsasən varlıların üzərinə düşməsi, bir sıra sənaye müəssisələrində mədən vergisinin işçilərin sayına görə tutulması və pul kapitalından gəlirlərə görə vergi tutulması qaydasına keçirilməsinin mübahisəli olması. Vergi, gömrük, aksiz işlərinin Maliyyə Nazirliyi tərəfindən düzgün idarə olunmasını təmin etmək üçün nazirliyin dəftərxanasının nəzdində ayrıca gömrük aksiz bölməsi yaradılmışdı [39].

Azərbaycan Xalq Cümhuriyyəti vergi quruculuğunu, vergi qanunvericiliyini təmin etməklə bərabər onların düzgün və tam şəkildə həyata keçirilməsini də daima diqqətdə saxlayırdı. Əmək Nazirliyinin təqdimatı ilə parlament bu nazirliyin nəzdində fəhlə məsələsi üzrə xüsusi məşvərət şurası yaratmaq haqqında 19 mart 1919-cu il tarixində qanun qəbul etdi [40]. Bu qanuna görə şuranın vəzifələrindən biri fəhlə və sahibkarlar arasında münasibətlərin tənzimlənməsi idi. Azərbaycan Xalq Cümhuriyyəti milli iqtisadi dəyərlər və dünyəvi prinsiplər əsasında qurulurdu. Cümhuriyyətin ilk yarandığı dövrlərdən başlayaraq burada mütərəqqi gəlir vergisinin üstün tutulacağı göstərilirdi. Bu, Baş Nazir Fətəli Xan Xoyskinin təqdim etdiyi və parlamentin 1918-ci il 26 dekabr tarixli iclasında baxılan hökumət proqramında əksini tapmışdı [3, s. 85]. Parlament iclaslarında dəfələrlə müzakirə olunan vergi

məsələsində əsas diqqət vergi dərəcələrinə yönəldilmişdi. Parlament iclaslarının stenoqrafik hesabatlarının araşdırılmasından məlum olur ki, bu iclaslarda vergi dərəcələrinin həm yüksək olması, həm də aşağı olması hallarında baş verə biləcək hadisələrin dəfələrlə elmi təhlili verilmiş, vergi dərəcələri ilə qiymətlər (inflyasiya), həyat səviyyəsi, təbəqələşmə, sosial problemlər arasında qarşılıqlı əlaqələrin olduğu göstərmişdir.

F.X.Xoyskinin Baş nazir olduğu müddətdə maliyyə siyasətinin əsasında vergi dərəcələrinin ümumiyyətlə azaldılması və mütərəqqi gəlir vergisinə üstünlük verilməsi dayanırdısa, N.B.Yusifbəylinin Baş Nazir olduğu dövrdə (*22 dekabr 1919-cu ildən*) isə müstəqim vergilərin artırılması, qeyri-müstəqim vergilərin (*neft, şərab, tütünü çıxmaqla*) azaldılması nəzərdə tutulurdu.

Dövlət büdcəsini artırmaq, 1920-ci il üçün daha etibarlı və tutumlu büdcə formalaşdırmaq məqsədilə parlament neft məhsullarına tətbiq olunan aksizlərin dəyişdirilməsi haqqında qanun layihəsinə baxır və təsdiq edir. Nəticədə büdcəyə əlavə 130 mln rubl daxil olunması təmin edilir [3, s. 869-870].

Parlamentin 1919- cu il 15 dekabr tarixli iclasında maliyyə nazirliyinin təqdim etdiyi mütərəqqi gəlir vergisinin artırılmasına dair qanun layihəsinə baxılır. Lakin bu qanunun təsdiqi təxirə salınır. Belə hesab edilir ki, belə bir qanunun təsdiq edilməsindən əvvəl maliyyə nazirliyi tərəfindən 2 qanun layihəsi parlamentə təqdim olunmalıdır. Bunlar ticarət-sənaye müəssisələrinin və kommersiya ilə məşğul olanların, xüsusi şəxslərin həqiqi mənfəətinin vergiyə cəlb olunmasına dair qanun layihəsi, digəri isə vergiyə cəlb olunmayan yaşayış minimumunun artırılmasına dair qanun layihəsidir [3, s. 804]. Əlbəttə parlamentin belə mövqe tutmasında məntiq var və o, nəzərə alındı. Vergilər vasitəsilə gəlirlərin bölüşdürülməsi və bu yolla cəmiyyətdə ədalətin formalaşdırılması, əlbəttə, daha çox iqtisadi-hüquqi hadisədir. Bu zaman maraq və mənafelərin tam harmoniyasını təmin etmək və iqtisadi fəaliyyəti humanistləşdirmək sadəlövh görünə bilər. Azərbaycan xalqının dini-mənəvi dəyərlərindən irəli gələn xeyriyyəçilik həmişə cəmiyyətdə humanizmin ifadəsi olmuşdur. Bu prinsiplər tarixən həmişə qorunmuşdur. Hələ Azərbaycan Xalq Cümhuriyyəti hakimiyyətindən əvvəl 1917-ci ildə Ümumqafqaz müsəlmanları qurultayında (*15-20 aprel 1917-ci il Bakı*) Azərbaycan dilində tədris universitetinin açılması, məktəb işinin maliyyələşdirilməsi diqqət mərkəzində olmuşdu. Bununla əlaqədar Milli Fond yaradılmışdı. Könüllü ianələr hesabına formalaşdırılan bu fonda 50 min rubl pul ayıran xeyriyyəçi H.Z.Tağıyev qurultayda xüsusi qarşılanmışdı [41, s. 8]. Cümhuriyyət dövründə humanitar fəaliyyətin daha da genişləndirilməsi və dövlət səviyyəsində həyata keçirilməsi bu böyük messenatın 1919-cu il iyunun 29-da Azərbaycan Xalq Cümhuriyyətinin Nazirlər Şurasının sədri H.Yusifbəyliyə məktubla müraciətində xüsusi olaraq vurğulanmışdı. O, hökumətə şəxsi təşəbbüsə geniş meydan verilməsini, şəxsiyyət və mülkiyyət hüquqlarına hörmət edilməsini, maliyyə siyasətinin təkmilləşdirilməsini məsləhət bilirdi [42, s. 114].

Azərbaycan Xalq Cümhuriyyətinin iqtisadi-siyasi və vergi işi əsas parametrlərinə görə mütərəqqi, demokratik, azad iqtisadiyyat qurmaq vəzifələrinə uyğun gəlsə də burada nöqsanların da mövcud olduğunu, keçmişin bir sıra qalıqlarının hələ aradan qaldırılmadığını göstərmək lazımdır. Məsələn vergi yığmaqda, xüsusən əyalətlərdə "dinmə ver", "şallaq və dəyənək" prinsiplərinə rast gəlmək olurdu. Görkəmli maarifçi Ömər Faiq Nemənzadə 1919-cu ildə yazırdı: "Hamının fikri və xəyalı xüsusi mülkiyyətdədir. Millət və hökumət düşüncəsi, xəzinə faydası birər bəhanə, birər lafdır. Ümumiyyət pərdəsi altında xüsusiyyətdir. Hamı bu dərdə mübtəladır" [43]. Lakin tarix ibrət dərsidir. O, bütün hadisələri ilə (*həm müsbət, həm də mənfi*) təcrübə məktəbidir. Bu məktəbdən faydalanmaq çox vacibdir.

Azərbaycan Xalq Cümhuriyyətində vergi işinin təşkili təkcə ölkənin maliyyə imkanlarının artırılmasına xidmət etmirdi. Onun mühüm bir missiyası Azərbaycan Xalq Cümhuriyyətinə miras qalan əmək və kapital arasındakı gərgin münasibətləri qaydaya salmaqdan ibarət idi. N.B.Yusifbəylinin Baş Nazirliyi dövründə Əmək Naziri olan Ə.Pepinov əmək və kapital arasında qarşılıqlı münasibətin dövlət tərəfindən tənzimlənməsinin zəruriliyini dəfələrlə qeyd etmişdir. M.B.Məmmədzadə bəylərlə kəndlilər arasında münaqişələrin həllinə diqqət yetirməyin vacibliyini göstərmişdir. Bütün bunlar isə sosial-iqtisadi qanunvericiliyin yaradılması və həyata keçirilməsini tələb edirdi. Belə bir qanunvericilik isə Azərbaycan Xalq Cümhuriyyəti dövründə yaradıldı. Öz mövcudluğu dövründə Azərbaycan Xalq Cümhuriyyəti parlamentı 145 iclas keçirtdi, 270 qanun layihəsini müzakirə etdi. Onların 230-nu qəbul etdi. Bu qanunların 82-si ancaq iqtisadi və maliyyə məsələlərinə aid idi [44].

## 5. Nəticə

Azərbaycan Xalq Cümhuriyyəti müstəqil dövlətin ən mühüm iqtisadi atributlarını (*Milli Bank, milli valyuta, milli bazar, dövlət büdcəsi, xarici iqtisadi əlaqələr və s.*) formalaşdırmış, özünün sosial-iqtisadi siyasətinin həyata keçirilməsi istiqamətində ilk mühüm addımlarını atmışdır. Azərbaycan Xalq Cümhuriyyəti dövründə azad sahibkarlıq institutunun təşəkkül tapması üçün mülkiyyət, vergi münasibətləri formalaşmışdır. Azərbaycan Xalq Cümhuriyyətinin vergi işində ölkənin maliyyə sabitliyini təmin etmək diqqət mərkəzində idi. Qısa müddət ərzində vergi orqanları yaradılmış, müstəqim və qeyri-müstəqim vergilərin ayrı-ayrı növləri tətbiq edilməklə ilk dəfə olaraq müstəqil dövlətin büdcəsini formalaşdırmaq mümkün olmuşdur. Azərbaycan Xalq Cümhuriyyəti dövründə istinad olunan ən mühüm vergi növü gəlir vergisi sayılırdı. Mühüm makro-iqtisadi hadisələr olan inflyasiya, işsizlik, iqtisadi artım, rifah halı arasında qarşılıqlı əlaqə və asılığı nizamlamaq üçün həm iqtisadiyyatın real sektorunda, həm də qanun-vericilik qaydasında böyük təcrübi əhəmiyyət kəsb edən ciddi addımlar atılmışdır.

Vergiqoyma qaydalarının, vergi növlərinin, vergi dərəcələrinin müəyyənləşdirilməsi, pul dövriyyəsinin tənzimlənməsi, birja işinin təşkili, bank işinin qurulması milli sahibkarlıq üçün əlverişli şərait yaratmaq məqsədlərini ifadə edirdi. Azərbaycan Xalq Cümhuriyyəti "güclü sahibkarlıq - güclü dövlət" formuluna istinad edirdi.

Azərbaycan Xalq Cümhuriyyəti dövründə xüsusi mülkiyyətin toxunulmazlığı prinsipini əsas götürən azad iqtisadiyyat tərəfdarları ilə yanaşı, iqtisadiyyatın dövlət tənzimlənməsi ideyasına üstünlük verənlər də var idi. Eyni zamanda dövlət inhisarçılığının üstünlüklərini liberal iqtisadiyyat, sosialist tənzimlənməsi ilə sintez edib, əslində qarışıq iqtisadiyyat ideyasını ortalığa qoyan qüvvələr də az deyildi. Bu ideologiyaların hansına üstünlük verilməsindən asılı olmayaraq qeyd olunmalıdır ki, onlar iqtisadi fikir baxımından xüsusi maraq kəsb edir və diqqətəlayiqdir. Azərbaycan Xalq Cümhuriyyətinin iqtisadi inkişaf yolunda etatizm, konservatizm, sosial-liberalizm ideyaları artıq təcrübədən keçmiş ideyalar sayılmalıdır. Nəticə etibarı ilə Azərbaycan Xalq Cümhuriyyəti azərbaycançılığın, islamçılığın, müasirliyin sintezi əsasında mükəmməl ideologiya formalaşdırmaqla unikal iqtisadi model yaratmaq sahəsində böyük irs qoyub getmişdir. Bu tarixi təcrübə dərindən və hərtərəfli öyrənilməyə layiqdir.

### Ədəbiyyat və ilkin mənbələr


1. M.Ə.Rəsulzadə. Azərbaycan Cümhuriyyəti. Bakı: "Elm" 1990, 116 s.
2. M.Ə.Rəsulzadə. Əsrimizin Səyavuşu. Bakı: "Gənclik" 1991, 112 s.
3. Азербайджанская Демократическая Республика (1918-1920). Парламент. (стенографические отчеты) Баку, 1998. 992 стр.
4. "Açıq söz" qəzeti № 513, 1917.
5. "Азербайджан" qəzeti, № 155, 25 Iyul 1919.
6. "Азербайджан" qəzeti. № 247, 15 Noyabr 1919.
7. "Азербайджан" qəzeti. № 155, 25 Iyul 1919.
8. "Азербайджан" qəzeti. № 180, 26 avqust 1919.
9. "Азербайджан" qəzeti № 265, 7 dekabr 1919.
10. "Азербайджан" qəzeti. № 270, 13 dekabr 1919.
11. "Азербайджан" qəzeti № 15, 10 yanvar 1919
12. Azərbaycan Respublikasının Dövlət Arxivi (ARDA), fond, 895, siyahı 3, iş 274, vərəq 1,3,4,5,6.
13. "Азербайджан" qəzeti. № 278, 24 dekabr 1919.
14. ARDA, fond 895, siyahı 3, iş 250, vərəq 3.
15. ARDA, fond 895, siyahı 3, iş 148, vərəq 9.
16. ARDA, fond 84, siyahı 1, iş 57, vərəq 1.
17. ARDA, fond 84, siyahı 1, iş 57, vərəq 2.
18. ARDA, fond 84, siyahı 1, iş 57, vərəq 6.
19. ARDA, fond 84, siyahı 1, iş 57, vərəq 15.
20. ARDA, fond 24, siyahı 1, iş 51, vərəq 15-17.
21. N.Nəsibzadə. Azərbaycan Demokratik Respublikası. Bakı: "Elm" 1990, 112 s.

22. “Азербайджан” qəzeti, № 6, 8 oktyabr (25 sentyabr), 1918.
23. “Азербайджан” qəzeti, 31 (18) dekabr 1918.
24. “Азербайджан” qəzeti, № 5, 7 oktyabr (24 sentyabr), 1918.
25. “Каспий” qəzeti, № 99, 10 noyabr 1918; № 100, 12 noyabr 1918; № 102, 14 noyabr 1918; № 103, 15 noyabr 1918.
26. ARDA, fond 84, siyahı 1, iş 124, vərəq 1.
27. ARDA, fond 84, siyahı 1, iş 124, vərəq 1,2,3,4,5.
28. ARDA, fond 84, siyahı 1, iş 23, vərəq 326.
29. Azərbaycan Demokratik Respublikası, Bakı. Azərnəşr 1992, 191 s.
30. ARDA, fond 895, siyahı 3, iş 148, vərəq 9.
31. ARDA, fond 895, siyahı 3, iş 52, vərəq 11.
32. ARDA, fond 895, siyahı 3, iş 88, vərəq 5.
33. ARDA, fond 895, siyahı 3, iş 318, vərəq 13, 16.
34. ARDA, fond 895, siyahı 3, iş 116, vərəq 18.
35. ARDA, fond 895, siyahı 3, iş 49, vərəq 13.
36. ARDA, fond 84, siyahı 1, iş 430, vərəq 3-7.
37. ARDA, fond 84, siyahı 1, iş 430, vərəq 2.
38. ARDA, fond 84, siyahı 1, iş 936, vərəq 13.
39. ARDA, fond 84, siyahı 4, iş 3, vərəq 3.
40. ARDA, fond 895, siyahı 1, iş 13, vərəq 62.
41. А.Балаев. Азербайджанское национально-демократическое движение 1917-1920. Баку: 1990, 96 с.
42. Mahmud İsmayıl, Marat İbrahimov. El atası. Bakı: “Azərnəşr” 1994, 124 s.
43. Sitat prof. Ş.Qurbanovun “O zəmanəsinin övladı idi” məqaləsindən götürülüb. Bax: “Kommunist” qəzeti, 6 iyul 1991.
44. “Azərbaycan” qəzeti, 23 may 1998.

**Керимов Хосров Шарафеддин оглы**
доктор философии по экономики, доцент

## Экономическая политика и налоговое дело Азербайджанской Демократической Республики

### Аннотация

В статье автор исследует основное содержание социально-экономической политики АДР, построение в короткие сроки либеральной экономики, опирающейся на национальные и мировые ценности, исторический процесс формирования её реальных, институциональных и правовых основ. Впервые в Азербайджане автор, ссылаясь на первоисточники и материалы печатных органов того периода, изучает историю зарождения и развития плюрализма собственности, национального банка, национальной валюты, государственного бюджета, национального рынка, внешнеэкономических связей, экономического управления, сопровождаемого налоговыми отношениями.

Исследование имеет огромное значение с точки зрения оценки экономических аспектов идеи национального государства, изучения опыта построения либерального общества в стране, а также сохранения в памяти уроков истории.

**Ключевые слова:** *экономика Азербайджана, история экономической мысли, налоговая политика*

**Karimov Khosrov Sharafeddin ogli**
Doctor of Philosophy in Economics, assistant professor

## Economic policy and taxation in Azerbaijan Democratic Republic (ADR)

**Annotation**

In this article, have investigated the main contents of social and economic policy of the ADR. Researching the formation history of establishment, real, institutional and legal bases of liberal economic processes, leading to the national and secular values of a short time. It is the first time in Azerbaijan, that discovered the property pluralism, national bank, national currency, state budget, national market, foreign economic relations, economic management, accompanied by the tax, for-mation and evolution history of initial sources that have referred to the press organs materials of that time.

The investigation assumes importance from view point of learning the historical lessons, practices of establishment of liberal society in the country and economic valuing aspects of statehood thoughts of population.

**Key words:** *Economy of Azerbaijan, the history of economic thought, tax policy*

**JEL Classification Codes:** B1, E62,H3,O23

Məqalə redaksiyaya daxil olmuşdur: 18.04.11
Təkrar işləməyə göndərilmişdir: 28.04.11.
Çapa qəbul olunmuşdur: 11.05.11.